Azadlıq Radiosu

DÜNYA XƏBƏRLƏRİ

# Rusiya Krivoy Roqda ticarət mərkəzini vurub, 6 nəfər həlak olub

47 dəqiqə öncə




Hadisə yeri

Avqustun 21-də günorta saatlarında Rusiya qüvvələri Ukraynanın Krivoy Roq şəhərində ticarət mərkəzinə dron zərbələri endirib. Beş nəfər həlak olub, azı 50 nəfər yaralanıb. Onlardan altısı uşaqdır.

Ticarət mərkəzində mağazalar yanıb.

Şəhər Müdafiə Şurasının sədri **Aleksandr Vilkul** "Şahed" dronlarının təkrar hücum həyata keçirdiyini bildirib.

Rəsmilərin sözlərinə görə, zərbə şəhərin mərkəzində yerləşən ən böyük ticarət mərkəzinə endirilib.

Ukrayna prezidenti **Volodimir Zelenski** zərbələri pisləyib.

**“Belə zərbələr sadəcə terror aktıdır. Dünya təcavüzkara real təzyiq göstərməklə buna cavab verməlidir. Sülhün əldə olunması üçün Rusiya real məsuliyyət daşımalıdır”,** – Zelenski yazıb.

Rusiya Ukraynanı hər gün atəşə tutur. Rusiya Müdafiə Nazirliyi yalnız hərbi hədəflərə zərbələr endirdiyini bildirir, dinc sakinlərin ölümü, yaşayış evlərinin, mülki infrastrukturun dağıdılmasını şərh etmir.

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur